

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 234 (21.135)

9 dekabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Babək rayonunun Naxışnərgiz kəndi abad yaşayış məntəqələrinin sırasına qoşulmuşdur

Ümummilli liderimizin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün muxtar respublikada uğurla həyata keçirilir. Kompleks quruculuq işlərinin aparılması, yeni infrastruktur sahələrinin yaradılması kənd yaşayış məntəqələrinin inkişafına da təkan vermiş, insanların rahat yaşayışı təmin olunmuşdur. Həyata keçirilən bu tədbirlər Babək rayonunun Naxışnərgiz kəndini də əhatə etmişdir. Bu il kənddə müasir məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası Naxışnərgizin inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.

## Naxışnərgiz kənd məktəbi üçün yeni bina tikilmişdir

Dekabrın 8-də Naxışnərgiz kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Anar Fərzəliyev kollektiv adından minnətdarlıq edərək demişdir ki, təhsil islahatlarından Naxışnərgiz kəndinə də pay düşüb. Sakinlər bu məktəb binasının istifadəyə verilməsini böyük sevinc hissi ilə qarşılayırlar. Yeni məktəb binası qarşıya savadlı, intellektli gənclər yetişdirmək kimi mühüm vəzifələr qoyur. Ona görə də kollektiv tədrisin keyfiyyətini yüksəltmək üçün səylə çalışacaq, məktəb muxtar respublikanın qabaqcıl təhsil ocaqlarından birinə çevriləcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxışnərgiz kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, kollektivə tədrisdə uğurlar arzulayaraq demişdir: “Muxtar respublikanın ümumtəhsil məktəblərinin sırasına daha bir məktəb – Naxışnərgiz kənd tam orta məktəbi əlavə olunur. Bu günə qədər Naxışnərgiz kəndində məktəb olmamış, şagirdlər qonşu kəndin məktəbində təhsil almışlar. Lakin ölkəmizin inkişafı və təhsil sahəsində həyata keçirilən tədbirlər kənddə yeni məktəbin yaradılmasına imkan vermişdir”.

Ümummilli liderimiz Heydər Əliyevin ***“Ölkəmizin gənclərini təhsilli etmək üçün müasir tələblərə cavab verən məktəb binalarının tikilməsi ilə məşğul olmalıyıq”*** fikrini xatırladan Ali Məclisin Sədri demişdir: “Ölkəmizdə müasir məktəb binalarının tikilməsi istiqamətində görülən işlər Naxışnərgiz kəndini də əhatə etmişdir. Müasir tədris avadanlıqları ilə təmin olunan yeni məktəb binasının tikilməsi kənddə gənclərin təhsilli böyüdülməsinə imkan verəcəkdir. Məktəb işi ən vacib sahələrdən biridir. Çünki ölkənin gələcəyi məktəblərdə hazırlanır. Ona görə də məktəblərdə lazımi şərait yaradılmalı, müəllimlər tələbkarlıq, şagirdlər isə çalışqanlıq prinsiplərini əsas götürməli, məktəb işi müasir tədris metodlarından istifadə əsasında qurulmalıdır. Müəllimlər bilməlidirlər ki, onlar təhsilli və vətənpərvər gənclər yetişdirməklə ölkəmizin gələcəyinə xidmət edirlər. Gənclərimiz isə bilməlidirlər ki, onların qarşısında duran əsas vəzifə yaxşı oxumaq, vətənpərvər olmaq, qabiliyyətlərinə və bacarıqlarına uyğun peşələrə yiyələnməkdən ibarətdir. Hər bir gənc o zaman ölkəsi və xalqı üçün faydalı olur ki, o, gələcəkdə hər hansısa bir peşə sahibi olsun. Ölkəmizdə, eləcə də muxtar respublikada yeni məktəb binaların qurulmasında da əsas məqsəd ondan ibarətdir ki, gənclər yaxşı təhsil alsın, maraqlarına uyğun peşəyə yiyələnə bilsinlər”.

Ali Məclisin Sədri Naxışnərgiz kənd məktəbində təhsilli və vətənpərvər gənclərin yetişdiriləcəyinə əminliyini bildirmiş, bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Bildirilmişdir ki, məktəbdə 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları istifadəyə verilmişdir.

Məktəbin kitabxana fondunda 2882 kitab vardır.

Ali Məclisin Sədri ümumtəhsil məktəblərində kitabxana işinin təşkili sahəsində görülən işlərin əhəmiyyətini vurğulamış, şagirdlərdə mütaliəyə marağın artırılması və kitabxana günlərinin keçirilməsinin vacibliyini qeyd etmişdir.

Kimya-biologiya və fizika laboratoriyalarında da lazımi tədris şəraiti vardır. Hərbi kabinəyə baxış zamanı şagirdlərdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsinin və onların hərb sənətinə marağının artırılmasının əhəmiyyəti vurğulanmışdır.

Kompüter və elektron lövhəli siniflərə baxış zamanı Ali Məclisin Sədrinə məktəbin informasiya texnologiyaları ilə təminatı barədə məlumat verilmişdir.

Bildirilmişdir ki, kompüter otağında 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Məktəbdə 3 elektron lövhəli sinif vardır. İnternetə çıxışı olan və lazımi elektron dərsliklərlə təmin edilən interaktiv lövhələr elektron təhsil mübadiləsinin aparılmasına da imkan verir. Baxış zamanı Naxışnərgiz kənd tam orta məktəbi ilə Xalq şairi Məmməd Arazın Şahbuz rayonunun Nursu kəndindəki ev-muzeyi arasında əlaqə qurulmuş, “Məmməd Arazın həyat və yaradıcılığı” mövzusunda dərs keçilmişdir. Virtual dərsi Distant Tədris Mərkəzinə qoşulmuş muxtar respublikanın 200-dən artıq ümumtəhsil məktəbinin 4 minə yaxın şagirdi izləmişdir.

İdman zalı şagirdlərin fiziki hazırlığının normal təşkilinə imkan verəcəkdir.

Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüş, məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsi barədə tapşırıqlar verərək demişdir: “Bu gün Naxışnərgiz kəndinin həyatında əlamətdar bir gündür. Kənddə idarəetmə strukturları və məktəb üçün yeni binalar istifadəyə verilir. Bu da tədrisin düzgün təşkilinə, təhsil sahəsində uğurlu nailiyyətlərin qazanılmasına imkan verəcəkdir. Ölkənin tərəqqisi təhsildən, təhsilin inkişafı isə müəllimlərin fəaliyyətindən asılıdır. Pedaqoji kollektivin qarşısında bir vəzifə durur: bu da dövlətimizin yaratdığı şəraitdən düzgün istifadə edərək təhsilli və vətənpərvər gənclər yetişdirməkdir. Ona görə də məktəbdə tələbkarlıq artırılmalı, tədris prosesində qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilməlidir”.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıq etmiş, məktəbdə tədrisin səviyyəsinin yüksəldilməsi istiqamətində səylə çalışacaqlarını bildirmişlər.





Məktəbin həyətində də abadlıq işləri aparılmış, gülkarlıqlar salınmışdır.

Ardı 2-ci səhifədə



## Naxışnərgizdə kənd mərkəzi istifadəyə verilmişdir






Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının qarşıya qoyduğu əsas vəzifələrdən biri də kəndlərin inkişafının təmin olunmasıdır. Son illər muxtar respublikanın kəndlərində müasir infrastrukturun yaradılması, yeni sosial obyektlərin inşası, xüsusilə kənd mərkəzlərinin istifadəyə verilməsi bu mənada mühüm əhəmiyyət kəsb edir.

Dekabrın 8-də Naxışnərgiz kəndində yeni kənd mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yaradılan şəraitlə tanış olmuşdur.

İki mərtəbədən ibarət olan kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, feldşer-mama məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, kənd klubu və 54 yerlik iclas zalı yerləşir.

Rabitə evi mərkəzin birinci mərtəbəsindədir. Burada elektron ATS quraşdırılmış, poçt bölməsinin fəaliyyəti təmin edilmişdir.

Kəndin ictimai-mədəni həyatında öz fəallığı ilə seçilən Yeni Azərbaycan Partiyası Naxışnərgiz kənd ərazi ilk təşkilatı üçün də iş otağı ayrılmış, kənd mərkəzindəki kitabxanada oxucuların istifadəsinə 7469 kitab verilmişdir.

Baytarlıq məntəqəsinə dərman vasitələrini saxlamaq üçün soyuducu qoyulmuş, baytarlara nümunəvi iş şəraiti yaradılmışdır. Qeyd olunmuşdur ki, kənddə əhalinin əsas məşğuliyyət sahəsinin heyvandarlıq olması baytarlıq xidmətinin günün tələbləri səviyyəsində təşkilini zəruri edir. Məntəqədəki yeni avadanlıqlar profilaktik tədbirlərin vaxtında və keyfiyyətlə aparılmasına imkan verəcəkdir.

Binada feldşer-mama məntəqəsi üçün də 4 iş otağı ayrılmış, məntəqə lazımi dərman vasitələri, ilkin tibbi yardım və peyvənd çantaları ilə təmin olunmuşdur.

Ali Məclisin Sədri kənddə əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən profilaktik tədbirlərin bundan sonra da davam etdirilməsi, eləcə də hamilə qadınlara və uşaqlara vaxtlı-vaxtında tibbi xidmət göstərilməsi barədə tapşırıqlar vermişdir.

Binada fərdi qazanxana qurulmuş, həyətdə abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmişdir.

## Naxışnərgiz kəndində yeni xidmət mərkəzi istifadəyə verilmişdir





Həmin gün Naxışnərgiz kəndində yeni xidmət mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını bildirən lenti kəsmişdir.

Binada bərbərxana, qadın gözəllik salonu, ərzaq və sənaye malları mağazaları vardır. Mağazalarda ərzaq məhsullarının, gündəlik tələbat mallarının, eyni zamanda geyim dəstlərinin, məktəbli formalarının və təsərrüfat mallarının satışı təşkil olunub. Xidmət mərkəzində 4 nəfər işlə təmin olunmuşdur.

Mərkəzlə tanışlıqdan sonra kənd sakinləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, son illər Naxışnərgiz kəndində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, feldşer-mama məntəqəsi və digər dövlət qurumları yaradılmışdır. Bu gün isə kənddə yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilir. Artıq Naxışnərgiz muxtar respublikanın abad yaşayış məntəqələrinin sırasına qoşulmuşdur. Bu gün kənddə təsərrüfatın müxtəlif sahələri – əkinçilik, maldarlıq, heyvandarlıq, arıçılıq inkişaf etdirilir. Kənddə əhali keyfiyyətli rabitə xidmətindən istifadə edir. Mənzillər elektrik enerjisi və təbii qazla fasiləsiz təmin olunmuş, məskunlaşma artmışdır. Görülən bu işlər kəndlə şəhər arasında fərqin aradan qaldırılmasına səbəb olmuşdur. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, abadlıq, təmizlik qorunub saxlanılmalı, sakinlər kəndin inkişafına öz töhfələrini verməlidirlər. Çünki kəndlərin inkişafı həm də ölkənin inkişafı deməkdir.

Kənd ziyalısı İsmayıl Ağamalıyev sakinlər adından minnətdarlıq edərək demişdir ki, bu il kənddə aparılan quruculuq işləri bütün sahələri əhatə etmişdir. Rahat yol, kənd və xidmət mərkəzləri, məktəb binası Naxışnərgiz kəndinə qəsəbə görkəmi vermişdir. Kənddə əhalinin məşğulluğunun təmin olunması, təsərrüfatların inkişafı, insanların rahat və firavan yaşaması üçün hər cür şərait vardır. Sakinlər göstərilən qayğının müqabilində daha səylə çalışacaq, ölkəmizin inkişafında, aparılan abadlıq-quruculuq işlərində yaxından iştirak edəcəklər.



* * *

Naxışnərgiz kəndində abadlıq işləri də aparılmış, kənddaxili 1400 metrlik yola asfalt örtük salınmış, 12 ədəd su keçidi qoyulmuş, 1 körpü təmir olunmuş, 950 metr uzunluğunda beton kanal tikilmişdir. Sirab kəndindən Naxışnərgiz kəndinədək 3484 və kənddaxili 200 metr fiber-optik kabel çəkilmiş, 2000 metrlik elektrik xətti yenilənmiş, 1420 metr qaz və 1050 metr içməli su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyində keçilən növbəti açıq dərsdə universitet tələbələri iştirak ediblər

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda açıq dərs keçilib.

Naxçıvan Dövlət Universiteti tələbələrinin iştirak etdiyi açıq dərsdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanın milli müstəqilliyinin qorunmasında, güclü və qüdrətli dövlət kimi dinamik inkişafında, ölkəmizin dünyada tanıdılmasında göstərdiyi misilsiz xidmətlərindən bəhs edib. Universitetin Tarix-filologiya fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda mühazirə oxuyub.

Qeyd olunub ki, dahi rəhbər Heydər Əliyev bütün fəaliyyəti boyu xalqın, dövlətin və cəmiyyətin mənafeyinə xidmət edib, Azərbaycan torpağının, Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün olan bütün tədbirləri uzaqgörənliklə həyata keçirib.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra xalqımız müstəqilliyin ilk illərində üzləşdiyi təhlükələrdən xilas olub, bütün sahələrdə uğurlu islahatlara başlanılıb. Açıq dərsdə Azərbaycanın bütün sahələrdə dünyanın aparıcı ölkələri ilə bir sırada durduğu faktlarla tələbələrin diqqətinə çatdırılıb, milli dövlətçiliyimizin memarı və qurucusu olan xalqımızın böyük oğlu Heydər Əliyevin zəngin və həmişəyaşar irsinin sistemli şəkildə araşdırılmasının, elmi əsaslarla öyrənilməsinin və təbliğinin ən vacib məsələlərdən olduğu bildirilib.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

**Mina QASIMOVA**

# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## *Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

**Ulu öndər Heydər ƏLİYEV:** ***SSRİ-nin dağılmasının qarşısında öz acizliyini dərk edən Sovet hakimiyyəti 1991-ci il martın 17-də ümumittifaq referendumu keçirdi. Rəsmi elan olunmuş nəticələrə görə, referendumda əhalinin 80 faizi iştirak etdi və guya onların 76 faizi ittifaqın saxlanmasına səs verdi. Azərbaycanda da bu referendumun nəticələri kobud surətdə saxtalaşdırıldı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, onun yerli strukturlarının zorla keçirdikləri bu referendumda o zaman yalnız Naxçıvan Muxtar Respublikası iştirak etmədi.***

*(Əvvəli qəzetin ötən sayında)*

1991-ci il fevralın 5-də Azərbaycan Ali Sovetinin iclasındakı çıxışımda respublikada o dövrdə yaranmış gərgin vəziyyəti, mövcud olan dərin siyasi böhranı şərh edərək təxirəsalınmaz tədbirlərin gerçəkləşdirilməsindən, o cümlədən Bakıda fövqəladə vəziyyətin ləğv edilməsindən, Dağlıq Qarabağ probleminin tədricən Dağlıq Qarabağ faciəsinə çevrilməsi təhlükəsindən, Azərbaycan Kommunist Partiyasının ləğv edilməsinin zəruriliyindən söz açdım. Tarixə nəzər salarkən qeyd etdim ki, "Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması – məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması – məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi – Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı. Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi?" Bu sualları qaldıraraq mən Ali Soveti, bütün qüvvələri, bütün Azərbaycan vətəndaşlarını hərtərəfli və konstruktiv bir proqram hazırlamağa çağırırdım. O dövrdə tam aydın idi ki, 1988-ci ildən başlayaraq hadisələri Azərbaycan xalqının iradəsi yox, erməni separatçıları idarə edirdilər. Hadisələr gerçəkləşdikdən sonra tədbirlər haqqında fikirləşməyə başlayan daim uduzur. Erməni separatçıları monolit bir qüvvə olaraq, ümummilli bir platforma səviyyəsində düşünülmüş addımlar ataraq, Dağlıq Qarabağı Azərbaycandan təcrid etmək yolunda hər gün yeni uğurlar qazanırdılar. Bunun müqabilində o dövrdə, təəssüf ki, heç bir qüvvə Azərbaycanda adekvat və konstruktiv addımlar atmağa qadir olmadı. Faciənin köklərini məhz burada axtarmaq lazımdır.

O dövrdəki Azərbaycan rəhbərliyi sadə bir həqiqəti nəzərə almırdı ki, dünyanın siyasi mənzərəsi böyük sürətlə dəyişməkdə idi. Yeni coğrafi-siyasi vəziyyət yeni strategiyaların formalaşmasını tələb edirdi və günün bu tələblərinə Azərbaycan, təəssüf ki, cavab verə bilmədi. Yenidənqurmanı dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alınan Azərbaycan xalq cəbhəsi hərəkatı qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, dərin elmi təhlil və siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə, populist çıxışlara və meydan əhval-ruhiyyəsinə üstünlük verdi. Nəticədə, Kommunist Partiyası-xalq cəbhəsi xətti üzrə formalaşmış qarşıdurma hakimiyyət uğrunda mübarizə müstəvisinə yönəldildi. Dağlıq Qarabağda böyük məharətlə hazırlanmış hiyləgər planların gerçəkləşdiyi bir vaxtda özlərini böyük siyasətçi sayan bu şəxslər səriştəsiz hərəkətləri ilə vətəndaşlarımızı bu oyunun qurbanlarına çevirdilər. Əfsuslar olsun ki, xalq adından çıxış edən bu insanlar öz şəxsi maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tutdular.

Məhz bu baxımdan bu gün də biz bu ağılsız siyasətin nəticələrini aradan qaldıra bilmirik. Əgər Dağlıq Qarabağ faciəsinin bir qütbündə erməni separatçılığı, erməni terrorizmi, Azərbaycana qarşı torpaq iddiaları durursa, digər qütbündə – nə qədər acı olsa da, bunu etiraf etmək lazımdır – bizim bəzi siyasətçilərimizin səriştəsizliyi, hakimiyyət hərisliyi, hədsiz-hüdudsuz şəxsi ambisiyaları durur. Məhz onlar bu gün tarixi təhrif edərək, Dağlıq Qarabağ qarşıdurmasını, Azərbaycan xalqının Dağlıq Qarabağ məsələsində Moskvanın tutduğu ədalətsiz mövqeyinə kəskin etiraz aksiyalarını öz şəxsi nailiyyətləri kimi qələmə verməyə başlayırlar. Bu gün həmin şəxslər o dövrdəki səhvlərinə bəraət qazandırmaq istərkən müxtəlif bəhanələr gətirirlər.

Amma yaxın və uzaq tarix göstərir ki, bütün bu hücumlara, bütün bu təqiblərə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi. Əgər bütün Azərbaycan xalqını hiddətləndirən, vahid sarsılmaz bir qüvvə kimi azadlıq meydanına toplayan milli qürur, milli oyanış, milli dirçəliş hislərindən konstruktiv şəkildə istifadə olunsaydı, biz bu gün Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olmazdıq. Xalq çox tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hisləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir. Bu ağır mənəvi sarsıntıdan, bu acı həqiqətin yaratdığı psixoloji zərbədən bir çox vətəndaşlarımız bu gün də özlərinə gələ bilmirlər.

Respublikanın Ali Sovetində etdiyim sonrakı çıxışlarımda da bir neçə dəfə təklif etdim ki, gəlin bir daha ictimai-siyasi durumu təhlil edək. Mənə isə cavab verirdilər ki, Dağlıq Qarabağ heç vaxt indiki qədər bizim olmayıbdır. Həqiqət isə ondan ibarət idi ki, vaxtilə Sovet İttifaqının rəhbərlərindən biri olduğuma görə, öz siyasi təcrübəmə əsaslanaraq yaxşı anlayırdım ki, mənim xalqımı uçuruma, fəlakətə aparırlar.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi Azərbaycan xalqı tərəfindən elə ilk günlərdən respublikanın ərazi bütövlüyünə qarşı, vətəndaşların Konstitusiya hüquqlarının pozulmasına yönəldilmiş bir cəhd kimi qəbul olundu. Lakin sərhədlərimizin toxunulmazlığı müxtəlifsəviyyəli dövlət qurumları tərəfindən rəsmən dəfələrlə təsdiq edilsə də, Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması məqsədini güdən siyasət mərhələ-mərhələ həyata keçirilirdi.

Hələ 1988-ci ilin martında SSRİ rəhbərliyi Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində, Dağlıq Qarabağın Azərbaycan SSR-in tabeliyindən çıxarılmasının təməlini qoydu. Heç bir obyektiv əsasa istinad etməyən, qondarma səbəblərlə qəbul edilmiş bu qərarla Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, külli miqdarda vəsait ayrıldı, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq nazirlik və qurumlarına həvalə edildi. Azərbaycan SSR Ali Sovetinin 17 iyun 1988-ci il tarixli qərarında isə qeyd olunurdu ki, mərkəzin həmin qərarı ilə həyata keçirilən tədbirlər "Muxtar vilayətin məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi, onun istər erməni və azərbaycanlı əhalisinin, istərsə də başqa millətlərinin iqtisadi və mənəvi tələbatının ödənilməsi üçün əlverişli şərait yaradır".

Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tabeliyindən çıxarmaq yolunda mərkəzin atdığı növbəti addım SSRİ Ali Soveti Rəyasət Heyətinin muxtar vilayətdə xüsusi idarəetmə forması yaratmaq haqqında 1989-cu il yanvarın 12-də verdiyi fərman oldu. Dağlıq Qarabağın idarə olunması mərkəzin nümayəndəsi A.İ.Volskinin başçılığı ilə yaradılmış Xüsusi İdarəetmə Komitəsinə həvalə edildi. Bu, faktiki olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılması demək idi.

SSRİ rəhbərliyi qəbul etdiyi rəsmi sənədlərdə belə bir təsəvvür yaratmağa çalışırdı ki, o, regionda yaranmış vəziyyəti normallaşdırmaq üçün atdığı addımlarda həm Azərbaycana, həm də Ermənistana münasibətdə paritetlik mövqeyindən çıxış edir. Halbuki mərkəzin Azərbaycana, azərbaycanlılara qarşı qərəzli münasibəti açıq-aşkar göz qabağında idi. Azərbaycanlılar hələ 1988-ci ildən əvvəl də SSRİ-nin mərkəzi kütləvi informasiya vasitələrində və Ermənistanın müxtəlif mətbu orqanlarında məqsədyönlü şəkildə həyata keçirilən ideoloji təcavüzə məruz qalırdılar. "Mənfi azərbaycanlı obrazı" yaratmaq həmin kampaniyanın əsas məqsədi idi. Bu, 1988-ci ildə Ermənistan SSR-də, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətində başlanmış kütləvi etnik təmizləmə əməliyyatının hazırlıq mərhələsi hesab edilə bilər. Ermənistanda yaşayan azərbaycanlıların misligörünməmiş qəddarlıqla ata-baba yurdlarını tərk etməyə məcbur edilmələri zamanı neçə-neçə soydaşımız, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildi. SSRİ-nin rəsmi dövlət qurumları, hüquq-mühafizə orqanları və kütləvi informasiya vasitələri Dağlıq Qarabağ probleminə olduqca böyük diqqət yetirdiyi halda, Azərbaycan xalqının böyük faciəsi tam sükutla müşayiət olundu. Azərbaycan rəhbərliyinin bu məsələdə tutduğu laqeyd mövqe isə öz xalqına qarşı əsl cinayət idi.

Ermənistan SSR Ali Soveti Azərbaycan rəhbərliyinin bu mövqeyindən "cəsarətlənərək" 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etdi. 20 Yanvar hadisələrinə bir neçə gün qalmış, yəni 1990-cı il yanvarın 15-də isə SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan olunması haqqında" fərmanı ilə, əslində, azərbaycanlıların Dağlıq Qarabağdakı ev-eşiklərinə qayıtmaq ümidlərinə son qoyuldu. Fərmanın başlığından göründüyü kimi, muxtar vilayətin və "bəzi digər rayonların" kimə mənsub olması məsələsi də artıq sual altına qoyulurdu.

Mərkəzin Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb olurdu. Onlar get-gedə daha aydın şəkildə dərk edirdilər ki, Azərbaycan rəhbərliyi respublikanın, xalqın taleyi ilə bağlı gedən oyunların qarşısını almaqda acizlik və qətiyyətsizlik göstərir, bəlkə də, rəhbər mövqelərini qoruyub saxlamaq üçün mərkəzlə sövdələşərək xalqa qarşı gizli xəyanətkar planlar həyata keçirir. Xalqın bütün məsuliyyəti öz üzərinə götürməkdən, bu xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı.

SSRİ rəhbərliyi də respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa açıq divan tutmaq yolunu seçdi. Sovet ordusunun, xüsusi təyinatlı dəstələrin və daxili qoşunların iri kontingentinin 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan edilmədən Bakını zəbt etməsi xüsusi qəddarlıq və misligörünməmiş vəhşiliklərlə müşayiət edildi.

Ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə həyata keçirilmiş 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi.

Törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublika rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərmişdir. Xalqın tələbi və bir qrup deputatın təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını, törədilmiş cinayətdə bu və ya digər dərəcədə iştirak etdiklərini bir daha təsdiq etmişdir. Respublika rəhbərliyi hətta şəhidlərin dəfn mərasiminə gəlməyi belə lazım bilməmişdir.

20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi də hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etməmişdir. Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qalmışdı.

Hələ Azərbaycanda Sovet hakimiyyəti dövründə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütləri tərəfindən yığılıb dövlət istintaq komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparılmışdı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirləri həyata keçirməmiş, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən mühüm arxiv sənədləri bütövlüklə və ya qismən məhv edilmişdi.

SSRİ-nin digər bölgələrində, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə baş vermiş hadisələr sovet rəhbərliyi, xalq deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu şəkildə təhrif edilərək yanlış yozuma və unutqanlığa məhkum edilmişdi.

Yalnız 1994-cü ildə 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılmışdı. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi həmin məsələyə xüsusi sessiya həsr edərək bir neçə gün davam edən iclaslarında yanvar hadisələrinin əsl səbəblərini açıqlamış, həqiqi günahkarları aşkar etmişdir. 1990-cı il yanvarın 20-də törədilmiş faciəli hadisələrə Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verilmişdir.

XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir. Həmin cinayəti törədənlər indiyədək öz cəzalarını almamışlar. Xalqımız əmindir ki, müqəssirlər tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verməli olacaqlar.

Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün də Azərbaycan xalqı onun milli mənliyini qorumaq üçün öz canlarından keçməyə hazır olan övladları ilə fəxr edir.

SSRİ-nin süqutundan bir neçə il əvvəl başlayan və tarixə "Suverenliklər paradı" adı ilə düşmüş prosesin bünövrəsini hələ 1988-ci il noyabr ayında Estoniya qoydu. "Suverenlik haqqında" qəbul edilmiş bəyannamə respublika ərazisində Estoniya qanunlarının ittifaq qanunları üzərində aliliyini elan etdi.

1990-cı il mart ayında Litva Ali Soveti Litva dövlətinin müstəqilliyinin bərpa olunduğunu bəyan etdi. 1990-cı il iyunun 12-də Rusiya Federasiyasının xalq deputatlarının birinci qurultayı "Rusiyanın dövlət suverenliyi haqqında" bəyannaməni təsdiq etdikdən sonra, iyul ayında Moldovanın Ali Soveti "Suverenliyin prinsipləri haqqında" bəyannamə qəbul etdi. Belarusun Ali Soveti 1990-cı ilin iyul ayında dövlət suverenliyi haqqında bəyannamə ilə çıxış etdi. Elə həmin ildə Qazaxıstan, Tacikistan, Qırğızıstan da öz suverenliklərini elan etdi.

Beləliklə, 1990-cı il ərzində bir neçə respublika öz suverenliyi haqqında bəyannamə qəbul etsə də, Azərbaycan hələ də fövqəladə vəziyyət şəraitində yaşayırdı, Bakının küçələrində isə əlitüfəngli sovet əsgərləri öz əməlləri ilə insan hüquqlarının pozulmasını adi bir hadisəyə çevirməkdə idilər.

SSRİ-nin dağılmasının qarşısında öz acizliyini dərk edən Sovet hakimiyyəti 1991-ci il martın 17-də ümumittifaq referendumu keçirdi. Rəsmi elan olunmuş nəticələrə görə, referendumda əhalinin 80 faizi iştirak etdi və guya onların 76 faizi ittifaqın saxlanmasına səs verdi. Azərbaycanda da bu referendumun nəticələri kobud surətdə saxtalaşdırıldı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin, onun yerli strukturlarının zorla keçirdikləri bu referendumda o zaman yalnız Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Bu da, öz növbəsində, muxtar respublika rəhbərliyinə ağır başa gəldi, Ali Məclisin o zamankı sədri işdən azad edildi, onun yerinə isə Vilayət Partiya Komitəsinin yenicə seçilmiş katibi qeyri-qanuni şəkildə təyin olundu.

*(Ardı qəzetin növbəti sayında)*

*23 dekabr bələdiyyə seçkiləri günüdür*

## Bələdiyyələr seçkili yerli özünüidarə orqanlarıdır

***Ölkəmizdə bələdiyyələrin yaranması, formalaşması və qanunvericilik bazasının yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq bələdiyyələrin statusu müəyyənləşdirildi.***

Ümummilli lider Heydər Əliyev çıxışlarında bələdiyyələrin yaradılması ilə əlaqədar demişdir: ***"Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaranmasının göstəricisidir. Yerli idarəetmə orqanları isə yerlərdə onların səlahiyyətləri çərçivəsində çox işlər görə bilərlər. Bələdiyyələr dövlətin gördüyü işlərin böyük bir hissəsini öz üzərlərinə götürəcək, dövlətin yükünü müəyyən qədər yüngülləşdirəcəklər. Ona görə bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, gələcək fəaliyyəti bizim cəmiyyətimiz üçün, dövlətimiz üçün və hər bir vətəndaş üçün çox vacibdir".***

Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi var və o, Azərbaycan Respublikası Konstitusiyası ilə və qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər. Hazırda respublikamızda zəngin qanunvericilik bazasına əsaslanan yerli özünüidarəetmə sistemi formalaşmış, vətəndaş təşəbbüskarlığı üçün əlverişli şərait yaradılmışdır.

Yerli özünüidarə vətəndaşların fəaliyyətinin elə bir sistemidir ki, həmin sistem qanun çərçivəsində onlara öz mənafeləri naminə yerli əhəmiyyətli məsələləri həll etmək imkanı verir. Bu hüququ qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar, bələdiyyələr və vətəndaşların yığıncaqları həyata keçirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə görə, Azərbaycan Respublikasında yerli özünüidarəni bələdiyyələr həyata keçirirlər. Bələdiyyələr hüquqi şəxsdirlər, onların öz möhürü, ştampı və bankda hesabı olur. Bələdiyyələr Konstitusiyaya, Seçki Məcəlləsinə, "Bələdiyyələrin statusu haqqında" Qanuna və özlərinin nizamnamələrinə əsasən təşkil edilən, bələdiyyə üzvlərindən ibarət orqanlardır.

Azərbaycan Respublikası vətəndaşlarının yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ vardır. Qanuna görə vətəndaşlar yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər vasitəsilə və digər formalarda həyata keçirirlər. Bundan əlavə, vətəndaşlar yerli özünüidarəni həm bilavasitə, həm də öz nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Ölkəmizdə bələdiyyələrin fəaliyyətini tənzimləyən zəruri qanunvericilik bazası yaradılmışdır. Bu qanunvericilik aktları içərisində "Bələdiyyələrin statusu haqqında" 2 iyul 1999-cu il tarixli Qanun xüsusi yer tutur. Həmin qanun yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirmişdir. Qanunun 27-ci maddəsi "Bələdiyyələrə seçkilər" adlanır. Bələdiyyələrə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun keçirilir. Yerli özünüidarə orqanlarına seçmək və seçilmək hüququ ilə bağlı "Bələdiyyələrin statusu haqqında" Qanunun müddəası vətəndaşların yerli özünüidarəni həyata keçirmək hüququnu ifadə edir.

Seçkilər vətəndaşların dövlətin idarə edilməsində iştirakının kütləvi formasıdır. Azərbaycan Respublikası vətəndaşlarının seçmək və seçilmək hüququ Konstitusiyanın 56-cı maddəsində öz təsdiqini tapmışdır.

Seçki Məcəlləsi ilə həmçinin bələdiyyə seçkilərinin təşkili və keçirilməsi qaydaları müəyyən edilir. Belə ki, həmin məcəllənin "Bələdiyyə seçkilərinin əsasları" adlanan 210-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir və həmin müddətin hesablanması səsvermənin keçirildiyi gündən başlanır, yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. Seçkilər günü 21 yaşı tamam olan (seçki günü də daxil olmaqla) və yaşı 21-dən yuxarı olan müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyəyə üzv seçilə bilərlər. Seçki qanunvericiliyinə görə, bələdiyyələrə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilir.

Bələdiyyələr vətəndaş təşəbbüskarlığının bərqərar edilməsi baxımından mühüm idarəetmə formasıdır. Bu təsisat müəyyən ərazidə məskunlaşmış əhalinin hüquq və azadlıqlarının qorunmasını, yerli problemlərin həllini təmin edən müstəqil idarəetmə qurumudur. Bu qurum əhaliyə xidmət göstərən qurum olub, dövlətin iqtisadi inkişaf strategiyasına uyğun olaraq, xalqın rifahının yaxşılaşdırılması istiqamətində zəruri fəaliyyət həyata keçirir. Bələdiyyələrin əsas funksiyası yerli məsələlərin həllində əhalinin iradəsini, mənafeyini ifadə etməkdən ibarətdir.

Yerli özünüidarənin inkişaf etdirilməsi işinin dövlət siyasətinin ayrılmaz tərkib hissəsi olması bu sahədə yeni-yeni uğurlar əldə olunmasına zəmin yaratmışdır. Yerli əhalinin bələdiyyələrlə sıx əlaqələr qurması, özünüidarə işlərində onların getdikcə daha fəal iştirak etmələri, bələdiyyə idarəçiliyinə yerli əhalinin cəlb olunması mühüm əhəmiyyət kəsb edir.

18 mart 2009-cu il tarixdə keçirilən referendumda Konstitusiyamıza edilmiş əlavə və dəyişikliklər yerli özünüidarə orqanlarının müasir cəmiyyətimizdə artan rolundan bir daha xəbər verir. Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafına dair, eləcə də ayrı-ayrı sahələrlə bağlı qəbul edilmiş bir sıra dövlət proqramlarında bələdiyyələr üçün müəyyən tövsiyələr verilmişdir. Bu tövsiyələr bələdiyyələrin daha da səfərbər olmalarına, yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllində, abadlıq-quruculuq işlərində fəallıq göstərmələrinə səbəb olmuşdur.

Qeyd edilməlidir ki, Naxçıvan Muxtar Respublikasında da bələdiyyələr hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda bələdiyyələrin fəaliyyəti ilbəil təkmilləşmiş, inkişaf və cəmiyyətdə özünə layiqli yer tutması istiqamətində işlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən bələdiyyələrin əksəriyyəti müasir standartlara cavab verən inzibati binalarda müvafiq otaqlarla təmin edilmişdir.

Muxtar respublikamızda bələdiyyələrin işinin təşkili, onların fəaliyyətinin əlaqələndirilməsi istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Muxtar respublikanın şəhər, qəsəbə və kənd bələdiyyələrinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə 9 iyul 2014-cü il tarixdə Naxçıvan şəhərində bələdiyyə sədrlərinin III muxtar respublika toplantısı keçirilmişdir. Toplantıda bələdiyyələrin fəaliyyəti geniş müzakirə edilmiş, görülmüş işlərə dair uğurlar və çatışmazlıqlar qeyd olunmuş, bələdiyyələr qarşısında duran vəzifələr müəyyən edilmişdir.

Bələdiyyələrin səlahiyyət müddəti cari ilin sonlarında başa çatır. Buna görə də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı ilə növbəti bələdiyyə seçkiləri 23 dekabr 2014-cü ilə təyin edilmişdir. Qeyd edək ki, yerli özünüidarənin mövcud olduğu 15 il ərzində bələdiyyələr xeyli təcrübə qazanıblar və onların cəmiyyətin həyatındakı rolu ilbəil artır.

Ümummilli liderin tövsiyəsi və xeyir-duası ilə formalaşaraq fəaliyyətə başlayan bələdiyyələr yerli özünüidarəni həyata keçirmək sahəsində fəaliyyətlərini daha səmərəli etmək üçün səylərini artırırlar.

*Növbəti bələdiyyə seçkiləri də yerli idarəçiliyin səmərəliliyinə müsbət təsir etməklə yerli özünüidarə sahəsində fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.*

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***



## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir

*Blokada şəraitində yaşayan Naxçıvan üçün hava nəqliyyatı mühüm əhəmiyyət daşıyır. Buna görə də muxtar respublikada bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Son illər Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyəti üçün kompleks quruculuq işləri görülmüş, maddi-texniki baza gücləndirilmiş, ölkə və beynəlxalq uçuşların təhlükəsiz təşkili təmin olunmuşdur.*

Bu istiqamətdə işlər noyabr ayında da davam etdirilmiş, hava limanının səmərəli fəaliyyəti diqqətdə saxlanılmışdır. Xidmətin müasir tələblər səviyyəsində təşkili üçün quruculuq tədbirləri davam etdirilmiş, işçilər üçün yeni bina istifadəyə verilmişdir. Rəsmi qonaq evi və VIP binasının ətrafına yeni asfalt örtük verilmiş, abadlıq işləri görülmüşdür. Bundan əlavə, aerovağzal binasında aparılan yenidənqurma və dayanacaqların genişləndirilməsi işləri davam etdirilir. Aerodromun qış mövsümünə hazır olması üçün lazımi tədbirlər görülmüş, uçuş-enmə zolağında, perronda cari təmir işləri aparılmışdır. Həmçinin bu sahədə çalışan əməkdaşlarla məşğələlər aparılmış, uçuş-enmə zolağının ilişmə əmsalını ölçən skidometr cihazı saz vəziyyətə gətirilmişdir.

Ötən müddət ərzində təhlükəsizlik tədbirləri də gücləndirilmiş, əraziyə daimi nəzarət etmək üçün əlavə olaraq daha 9 müşahidə kamerası quraşdırılmışdır. Aparılan yenidənqurma işləri zamanı mövcud transformator 2500 kilovolt-amper gücündə 2 ədəd yeni transformatorla əvəz edilmişdir. Teleskopik trapları mütəmadi elektrik enerjisi ilə qidalandırmaq üçün 1 ədəd 500 kilovolt-amper gücündə ehtiyat dizel generatoru qoyulmuşdur. İstilik və sanitariya texnikası ilə təchizat xidməti üzrə qışa hazırlıq tədbirləri zamanı qazanxanalara texniki baxış olmuş, yeni avadanlıqlar quraşdırılmışdır.

Ötən ay uçuşların fasiləsiz və qrafikə uyğun təşkil olunması məqsədilə tələbata uyğun yanacaq ehtiyatı yaradılmışdır. Belə ki, noyabr ayı ərzində "AZAL OİL" Yanacaq-Sürtkü Materialları İdarəsindən 272 min litr TS-1 təyyarə yanacağı, 2 min 400 litr dizel yanacağı daşınaraq yanacaq-sürtkü materialları anbarına tədarük edilmişdir. Həmin müddət ərzində 62 min 207 litr TS-1 təyyarə yanacağı, 3 min 173 litr A-92, 10 min 714 litr dizel yanacağı sərf olunmuşdur. Bakı-Naxçıvan marşrutu üzrə TS-1 yanacağının davamlı olaraq daşınması təmin olunmuşdur. Hava limanının balansında olan avtomobillərdən əlavə, yeni alınmış üçüncü MAN TGX18-400 yəhərli dartıcı avtomobilinin yanacaq daşıması üçün bütün razılaşdırmalar əldə edilmiş və dekabr ayının 3-dən etibarən növbəti yanacaqdaşıma işlərinə başlanılmışdır.

Qış aylarında fəaliyyətin səmərəli təşkili məqsədilə bütün növ maşınlara texniki baxış keçirilmiş, aşkar olunan nasazlıqlar aradan qaldırılmışdır. Noyabr ayında yanğınsöndürən avtomobillərdə və xidməti ərazilərdə profilaktik yoxlamalar aparılmış, yararsız yanğınsöndürənlər yenilənmişdir. Hava gəmilərinin buzlaşmaya qarşı emalı üçün istifadə edilən Global-tipli xüsusi maşına baxış keçirilmiş, texniki heyətlə mütəmadi olaraq buzlaşmaya qarşı nəzəri və praktik məşğələlər keçirilmişdir.

Xidmətin müasir tələblər səviyyəsində təşkilində ixtisaslı və peşəkar kadr təminatının da böyük rolu vardır. Buna görə də hava limanının müxtəlif xidmət sahələri üzrə ixtisaslı kadrlarla komplektləşdirilməsi işləri və ixtisasartırma kurslarının təşkili noyabr ayında da davam etdirilmişdir. Daşımaların təşkili və koordinasiyası xidmətinin şəxsi heyəti Bakı şəhərində Milli Aviasiya Akademiyasının kurslarında iştirak etmiş və imtahandan keçmişlər. Bu müddət ərzində 8 gənc Aviasiya təhlükəsizlik xidmətində agent vəzifəsinə, 2 gənc isə Əlahiddə hərbiləşdirilmiş mühafizə komandasına keşikçi vəzifəsinə qəbul olunmuşdur.

Ümumilikdə, noyabr ayı ərzində yerli hava xətti ilə 15 min 666 sərnişin, 273 min 682 kiloqram baqaj, 60 min 229 kiloqram yük və 2834 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətləri ilə, ümumilikdə, 266 sərnişin daşınmışdır.

*Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi bundan sonra da qarşıda duran vəzifələrin icrasını vaxtlı-vaxtında yerinə yetirəcək, əhaliyə nümunəvi xidmət göstərəcəkdir.*

***Naxçıvan Beynəlxalq Hava Limanı***

## İməciliklər mütəşəkkilliklə davam etdirilir

***Naxçıvan Muxtar Respublikasında ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi məqsədilə həyata keçirilən iməciliklər mütəşəkkilliklə davam etdirilir. Belə tədbirlərin nəticəsidir ki, son illər diyarımızda yaşıllıq sahələrinin həcmi bir neçə dəfə artıb, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb.***

Dekabrın 6-da keçirilən növbəti şənbə iməciliklərində ötən iməciliklərdə salınmış yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, belə sahələrin həcminin ağac və gül kollarının əkini ilə genişləndirilməsi davam etdirilib. Belə ki, Naxçıvan şəhər sakinləri Uzunoba Su Anbarının ətrafında 2 hektarlıq ərazidə 1800 ədəd meyvə ağacı əkib, müəssisə və təşkilatların ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstəriblər.

Şərur rayonunda, Naxçıvan-Sədərək magistral yolunun Danyeri, Aşağı və Yuxarı Daşarx kəndləri hissəsində 1600 ədəd meşə ağacı əkilib.

Babəklilər rayonun Şəkərabad və Hacıvar kəndləri ərazisində 172 ədəd həmişəyaşıl ağac, Qoşadizə kəndində 300, Yarımca kəndi yolunda isə 75 meşə ağacı əkiblər.

Ordubad rayonunda keçirilən iməciliklərdə Naxçıvan-Ordubad magistral yolunun "Qapıcıq" adlanan ərazisində 350, Qazi massivində 300, Ordubad şəhərindəki yeni tikililərin həyətlərində isə 250 ədəd meyvə ağacı əkilib. Bağlar diyarının digər ərazilərində də ağac əkini aparılıb ki, bunun 400-ü meyvə, 600-ü isə meşə ağacı olub.

Culfa rayonunun sakinləri tərəfindən isə həmin magistral yolun Culfa rayonu hissəsində 240 ədəd meşə ağacı, yeni tikilmiş obyektlərin həyətlərində 38 ədəd həmişəyaşıl ağac, Culfa şəhərindəki 3 nömrəli tam orta məktəbin ərazisində 20 ədəd meyvə ağacı əkilib.

Kəngərli rayonunun sakinləri Qarabağlar kənd 1 nömrəli tam orta məktəbinin 1 hektarlıq ərazisində 400 ədəd meyvə ağacı əkiblər.

Şahbuz rayonundakı İşgəsu massivində 1,7 hektarlıq ərazidə 1200, Badamlıq massivində 200 ədəd meyvə ağacı, Şahbuz şəhəri ərazisində 1000 ədəd gül kolu əkilib.

Sədərək rayonunda rayon İcra Hakimiyyəti binasının ətrafında 100 ədəd gül kolu, seysmoloji stansiyanın həyətində 50 ədəd meyvə, rayon mərkəzi Heydərabad qəsəbəsində yaşayan ahıl vətəndaşın həyətində 10 ədəd meyvə ağacı əkilib, təmizlik işləri aparılıb.

Həmin gün Şərur rayonunun Qarxun kəndində, Babək rayonunun Yarımca kəndində, Ordubad və Culfa şəhərlərində, Kəngərli rayonunun Şahtaxtı kəndində, Şahbuz rayonunun Mahmudoba kəndində yaşayan ahıl vətəndaşların həyətlərində təmizlik işlərinin aparılması da şənbə iməciliklərinin tərkib hissəsi olub.

**Xəbərlər şöbəsi**

***Bildiriş***

Naxçıvan şəhərində qeydiyyatda olan "Fərid-96" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200541701) ləğv olunduğundan fəaliyyəti dayandırılır.

***İtmişdir***

Babək rayonunun Məmmədrza Dizə kənd tam orta məktəbinə məxsus ştamp itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 1026